*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 374-382*

https://doi.org/10.62837/2025.4.374

**UOT:821.222.1**

**XATIN SEYRAN QIZI CƏFƏRLI**
*filologiya üzrə fəlsəfə doktoru*
**AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu**
**hatya_5@hotmail.com**

# SAHİB İBN ƏBBADIN "ƏL-İQNA FİL ARUD VA TƏXRİCİL QAVAFİ" ƏSƏRİNDƏ QAFİYƏNİN NÖQSANLARI VƏ HÜDUDLARI

**Açar sözlər**: *Sahib ibn Əbbad, qafiyə, şair, alim, əsər, əruz, tədqiqat, nöqsan, hüdud*
**Ключевые слова**: *Сахиб ибн Аббад, рифма, поэт, ученый, работа, аруд, исследование, недостаток, предел*
**Key words**: *Sahib ibn Abbad, rhyme, poet, scientist, work, arud, research, disadvantage, limit*

Şərq öz təbii aləmi ilə zəngin olduğu kimi, mənəvi dünyası ilə də zəngindir. Hələ orta əsrlərdən Şərq xanımlarının toxuduqları xalçalar, vurduqları ilmələr, Şərq memarlarının yaratdıqları saraylar, camelər, Şərq musiqiçilərinin bəstələdikləri musiqilər, Şərq rəssamlarının çəkdikləri miniatürlər bütün dünyaya səs salmış və dünyanı heyrətdə qoymuşdur. Bu mənada, Şərq elmini də bu cərgədən ayırmaq olmaz. Şərqin tibb, riyaziyyat, biologiya, kimya və digər dəqiq elmlər sahəsində dünya elmi-mədəni irsinə təqdim etdiyi şəxsiyyətlər, bütövlükdə dünya elmi-nəzəri fikrinin inkişafında mühüm rol oynamışdır. Təbii ki, Şərq filoloqlarının və şairlərinin yaratdıqları incilər də bu sıraya daxildir. Belə ki, Şərq öz poeziya aləmi ilə həmişə dünyanı heyrətdə qoymuş, Əbu Nüvas, Mütənəbbi, Ömər Xəyyam, Nizami, Sədi, Hafiz, Füzuli kimi görkəmli nümayəndələri Şərqin humanist ideyalarını dünyaya nümayiş etdirməklə bərabər, eyni zamanda, bütövlükdə dünya ədəbiyyatının humanist ideyalar kəsb etməsində də mühüm xidmətlər göstərmişlər. Sonralar Qərb dünyasının neçə-neçə böyük şairi, bu şairlərin əsərlərindən ilham alaraq, öz yaradıcılıqlarını zənginləşdirmişlər. Məsələ burasındadır ki, xalçalarda olan ilmələr kimi, Şərq ədəbiyyatı da böyükdən tutmuş, kiçik formalara qədər müxtəlif janrlarla zəngindir. Əsrlər boyu Şərq şeirinin gözəl janrları olan qəzəl, qəsidə, məsnəvi, müxəmməs, mürəbbe, rübai, tuyuğ kimi janrlarda minlərlə əsərlər yaranmış və Şərq ədəbiyyatının zənginliyi bütün dünyaya nümayiş edilmişdir. İslamın qəbulundan sonra Şərq filoloji-elmi-nəzəri fikrinin fundamental şəkildə araşdırılması, ərəb dili və ədəbiyyatının əsaslarının dərindən öyrənilməsi dünya filolologiyasında xüsusi bir mərhələ təşkil

edir. Bu mərhələnin özünəməxsus cəhətlərindən biri isə, Şərq şeirinin əsas vəzni olan əruz vəzninin tədqiqidir.

Əruz vəzninin əsaslarını əsaslarını miladi tarixlə 767-ci ildə ilk dəfə böyük ərəb filoloqu, dilçisi Xəlil ibn Əhməd əl-Fərahidi qoymuşdur. Xəlil ibn Əhmədin əsəri dövrümüzə qədər gəlib çatmasa da, onun nəzəri təlimi demək olar ki, bütün filoloqlar, tərəfindən qəbul edilmiş və ondan sonra yaşayıb-yaradan yüzlərlə alim əruzun və qafiyənin nəzəri əsasları haqqında onlarla əsərlər yazmışlar [1, s.17]. Lakin bu əsərlərin də böyük bir qismi, xüsusilə, ilk yüzilliklərdə yazılanların böyük əksəriyyəti itib batmışdır. Dövrümüzə qədər gəlib çatan ilk əsərlər sırasında isə, X əsrin görkəmli ictimai-siyasi xadimi, alimi, ədibi, şairi olan Sahib ibn Əbbadın "əl-İqna fil arud va təxricil qavafi" təzkirəsi mühüm yer tutur.

Bu əsər ərəb əruz və qafiyənin nəzəri əsasları haqqında olduqca qiymətli mənbələrdən biridir. Buna görə də o, hələ orta əsrlərdən həmişə ədəbiyyatşünasların diqqət mərkəzində olmuşdur. Adı müxtəlif mənbələrdə müxtəlif cür xatırlanan bu əsər 1960-cı ildə Bağdadda görkəmli ərəb alimi Məhəmməd Həsən Al-e Yasin tərəfindən "əl-İqna fil əruz və təxricil qəvafi" adı ilə nəşr olunmuşdur [4]. Məhəmməd Həsən Al-e Yasin kitaba qiymətli ön söz də yazmışdır [5].

Ərəb mənbələrində "qafiyənin eyibləri" adlı bölümə, adətən, ən axırda, yəni qafiyəni təşkil edən "hərflər", "hərəkələr", "qafiyənin hüdudları" bölmələrindən sonra gəlir. Lakin Sahib bin Əbbad öz əsərində bu prinsipdə bir qədər yerdəyişmə etmiş və "qafiyə eyibləri", daha doğrusu, "eyiblər" bölməsini hərflər və hərəkələr bəhsindən sonra vermişdir. Biz də Sahib bin Əbbadın prinsipinə sadiq qalaraq, əvvəlcə "eyiblər", sonra "qafiyənin hüdudları" və s. məsələlərə toxunacağıq.

Professor Tərlan Quliyev "Əruz və qafiyəşünaslıq tarixi (XIII-XVI əsrlər)" adlı monoqrafiyasında qafiyə və onun eyiblərindən danışarkən yazır: "*Ərəb qafiəyşünasları qafiyə dedikdə qafiyələnmiş hər iki qafiyə kəlməsində təkrarlanan hərf və hərəkələrin son dərəcədə dəqiqliyini və eyniliyini nəzərdə tutmuşdular ki, bu mənada təkrarlanan hərf və hərəkələrin ən cüzi şəkildə bir-birindən fərqlənmələri belə onların nəzərində qafiyə eyibi hesab olunur*" [3, s.174]. Daha sonra professor Tərlan Quliyev fikirlərinə davam edərək, yazır: "Həmçinin, ərəb alimləri ərəb dilində mövcud olan hərf və hərəkələrin ərəb qafiyəsini təşkil edən hərflər və hərəkələr mövqeyində işlənən zaman meydana çıxan xüsusiyyətlərini də incəliklərinə qədər öyrənmişlər. Məhz belə yanaşmanın nəticəsi olaraq, alimlər qafiyələnmə zamanı qafiyələrdə şairlər tərəfindən yol verilən nöqsanları aşkara çıxarmış və onları "qafiyə eyibləri" başlığı altında ümumiləşdirməyə çalışmışlar. Beləliklə, ərəb qafiyə elminin dördüncü, sonuncu səviyyəsini qafiyədə baş verən nöqsanların müxtəlif növ və xarakterlərindən bəhs edən "qafiyə eyibləri" bəhsi təşkil edir. Bəzən orta əsr müəllifləri bunu "şeirin eyibləri" kimi də adlandırırlar ki, həqiqətən də, bunu belə də adlandırmaq mümkündür. Çünki qafiyə eyibləri bir növ elə şeirin eyibləri deməkdir" [3, s.96].

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 374-382*

Beləliklə, əksər ərəb alimlərinə və eyni zamanda, Sahib bin Əbbada görə, ərəb qafiyəsində baş verən qafiyə eyiblərinin sayı, əsasən, beşdir: iqva, ikfə, ita, təzmin və sinad. İqva bir qəsidədə rəvi hərfinin hərəkəsinin müxtəlif şəkildə meydana çıxmasıdır. Sahib bin Əbbad, hətta, öz fikirlərinə مغتدى (muğtədi) və الاسود (əsvədu) sözlərini misal gətirərək, nəzəri fikirlərini əsaslandırmağa çalışır.

Qeyd edək ki, Xətib Təbrizidə də biz iqva termininə rast gəlirik. Belə ki, iqva haqqında Xətib Təbrizinin əsas nəzəri fikirləri yüzdəyüz Sahib bin Əbbadın fikirlərilə üst-üstə düşür. Lakin, Xətib Təbrizinin nəzəri şəkildə dediyi fikrə nümunə kimi verdiyi beytdə qafiyələnmiş üç sözdən ikisi əgər Sahib bin Əbbadın nümunəsilə eyniyyət təşkil edirsə, qafiyələnmiş üçüncü kəlmə Sahib bin Əbbadda yoxdur. Belə ki, hər iki müəllifdə qafiyələnmiş kəlmələrin bir tərəfi "müğtədi" və "əsvədu"dursa, qafiyələnmiş kəlmələrin üçüncüsü Xətib Təbrizidə مزود "muzəvvədi"dir. Beləliklə, qafiyələnmiş kəlmələrdə hərəkələrdən biri adlıq halı, digəri isə yiyəlik halı bildirdiyi üçün qafiyədə yol verilmiş bu nöqsan iqva adlanır.

Sahib bin Əbbada görə, ikinci qafiyə eybi ikfadır. İkfa eybi, qüsuru bir qəsidədə rəvi hərflərinin müxtəlif olmasıdır. Yəni, onun məxrəcinə görə yaxın hərflər şəklində meydana çıxmasıdır. Xətib Təbrizi isə ikfa termininə belə izah verir: "*İkfa bir qəsidədə ravi hərflərinin bir-birindən fərqlənməsidir. Bu hadisə əksər vaxt tələffüzləri bir-birinə yaxın olan hərflər arasında baş verir*" [2, s.157]. Bu izahlardan sonra hər iki müəllif dedikləri nəzəri fikrə aşağıdakı beyti nümunə verirlər.

قبحت من سالفة و من صدغ
كانها كشية ضب في صقع
(Sən hər cəhətdən çirkinsən. Arxa tərəfin ayı piyinə oxşayır.
Saçların üzünə və yanaqlarına tökülmüşdür)
[2, s.157].

Gördüyümüz kimi, bu beytdə "suduğ" və "süqu' " sözlərində ayn və ğayn hərfləri məxrəc etibarilə bir-birlərinə nə qədər yaxın olsalar da, hər halda ayrı-ayrı hərflərdir ki, bunların da bir qafiyə daxilində işlənməsi qüsur sayılmışdır.

Bu beytlə də Sahib bin Əbbad ikfa termininə yekun vurur. Lakin Xətib Təbrizi öz nəzəri fikirlərini daha bir neçə sətir davam etdirərək, eyni zamanda, öz nəzəri fikirlərinə müxtəlif şairlərin yaradıcılıqlarından nümunələr də misal verir.

Digər ərəb qafiyəşünaslarına və eyni zamanda, Sahib bin Əbbada görə qafiyə nöqsanlarından biri də itadır. Sahib bin Əbbadın nöqteyi-nəzərincə ita vahid bir qəsidədə bir sözün eyni mənada qafiyə şəklində təkrarlanmasıdır. Xətbi Təbrizi yazır: "*İta bir qəsidədə bir qafiyənin eyni mənada təkrarlanmasıdır. Məsələn, ər-racul və racul. Əgər bu sözlər müxtəlif mənalar daşısaydı, onda ita olmazdı*" [2, s.158]. Qeyd edək ki, eynilə Sahib bin Əbbad da öz fikrinə nümunə verərkən, rəcul sözünü misal gətirir. Orta əsrlər ərəb qafiyəşünaslarının fikrinə yekun vuran

professor Tərlan Quliyev ita eybi haqqında aşağıdakı elmi nəticələrə gəlir: "*Qafiyə nöqsanlarından biri də itadır. İta eyni bir qafiyənin eyni mənada təkrarlanmasıdır. Lakin itanın izahında ərəb qafiyəşünasları arasında fikir müxtəlifliyi nəzərə çarpır. Belə ki, Xətib Təbrizinin dediyinə əsasən, Xəlilə görə, qafiyə vəzifəsini daşıyan hər bir söz eyni tələffüzlə başqa bir qafiyənin tərkibində təkrar olunarsa və qafiyəyə aid amillər bu sözlərin üzərinə düşərsə, onda məna birliyindən və ya fərqindən asılı olmayaraq, buna ita deyilir. Xəlildən fərqli olaraq, digər alimlər, Əxfəş, Nadr bin Şumeyyil, Cərmi və Xətib Təbriziyə görə isə tələffüzcə eyni təkrarlanan qafiyənin müxtəlif məna fərqləri olduğu halda, onlar ita hesab olunmur.*

*Bizcə, burada Xəlil ibn Əhmədin mövqeyi heç də digər qafiyəşünasların fikirlərinin tam əksinə deyil. Sadəcə olaraq, Xəlili başa düşmək lazımdır. Xəlil güman ki, eyni mənalı və tələffüzlü sözlərin müxtəlif mənalı mürəkkəb sözlərin və ya qrammatik birləşmələrin tərkibi kimi işlənməsinin və onların qafiyələnməsinin əleyhinədir və bunu nöqsan sayır. Digər əruzçuların dediklərinə gəldikdə isə, onların fikirləri təqribən cinas qafiyələr haqqında olan mülahizələrlə üst-üstə düşür. Təbii ki, Xəlil də bunu hiss etdiyi üçün və mövcud olan belə qafiyələr mahiyyət etibarilə cinas qafiyələrdən fərqləndiyinə görə, Xəlil ibn Əhməd bu cür qafiyələnməni qafiyənin nöqsanlarından saymış və onu şeirin, qafiyənin eyiblərindən hesab etmişdir*" [ 3, s.97].

Digər qafiyə nöqsanları olan təzmin və sinada gəldikdə isə Sahib bin Əbbada görə, təzmin birinci beytin qafiyəsinin ikinci beytin qafiyəsindən asılı olmasına deyilir. Qeyd edək ki, Xətib Təbrizi də bu termin haqqında Sahib bin Əbbadla yüzdəyüz eyni fikirdədir. Sadəcə olaraq, Xətib Təbrizi həmişə olduğu kimi, öz fikirlərinə daha çox nümunə vermiş, öz nəzəri fikirlərini müxtəlif şairlərdən gətirdiyi nümunələrlə əsaslandırmışdır.

Sahib bin Əbbadda sonuncu qafiyə eyibi sinaddır. Onun nöqteyi-nəzərinə görə, sinad qafiyələnmə zamanı bir qafiyədə ridfin olması, digərində olmaması, eyni zamanda, bir qafiyədə təsisin olması, digərində olmaması deməkdir. Eyni zamanda, Sahib bin Əbbada görə, təsis dəxil hərfinin hərəkəsinin müxtəlif olmasına da deyilir. Belə ki, bu qüsur zamanı dəxilin hərəkəsi bəzən fəthəli, bəzən dammalı, bəzən isə fəthəli və kəsrəli ola bilir.

Beləliklə, bununla da Sahib bin Əbbad qafiyə eyibləri bölməsinə də yekun vurur. Xətib Təbrizi isə istər sinaddan, istərsə də icazə, rəməl, təhrid, nasb və bir sıra başqa qafiyə qüsurlarından da qısa şəkildə bəhs edir. Əslində diqqətlə baxdıqda həmin qafiyə qüsurları bu və ya digər mənada əsas qafiyə qüsurlarının içərisində yer tapan qüsurlardır. Bununla da demək olar ki, Sahib bin Əbbad Xətib Təbrizi kimi əlavələrə və bir qədər genişliyə yer verməsə də, əsasən, ərəb şeirində, ərəb qafiyəsində təzahür edən bütün qafiyə nöqsanlarına toxunmuş, onlar haqqında öz nəzəri fikirlərini söyləmişdir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 374-382*

Bütün bunlardan sonra, Sahib bin Əbbad da əsərinin qafiyə bölməsinin əsas sualına cavab vermək istəyir. Qafiyə nədir? Bu məqamda Sahib bin Əbbad yenə də öz əsərinin xarakterinə uyğun olaraq, bu suala ən qısa şəkildə cavab verir: "*Bəzilərinə görə qafiyə rəvi hərfidir. Bəzilərinə görə beytin axırıncı kəlməsi, bəzilərinə görə beytin axırıncı sakin hərfilə birinci sakin hərfi arasında qalan hərf və hərəkələr, bəzilərinə görə qəsidə, bəzilərinə görə isə beyt özü qafiyədir*" [4, s.83].

Qeyd edək ki, Xətib Təbrizi də qafiyə anlayışına təqribən bu şəkildə yanaşır. Sadəcə o, Sahib bin Əbbaddan fərqli olaraq, yuxarıda qafiyə haqqında olan bir neçə fikrin müəllifinin adlarını çəkir: "*Əruzçular qafiyə barəsində müxtəlif fikirlərdə olmuşlar. Xəlil demişdir: O, beytin axırından başlayaraq, birinci sükunlu hərfə qədər olan hissədir ki, sükunlu hərfdən öndə dayanan hərəkəli hərfdən sonra gəlir. Əxfəş demişdir ki, qafiyə beytin axırında gələn sözdür. O, beytin axırında gəldiyi və sözü (beyti) bir növ dayandırdığı üçün qafiyə (bir mənası arxa tərəf deməkdir) adlandırmışdır*" [2, s.144].

Əruz və qafiyəşünaslıq tarixinin tədqiqatçısı, professor Tərlan Quliyev ərəb qafiyəşünaslarının qafiyə haqqında olan fikirlərini yekunlaşdırarkən, aşağıdakı nəticələrə gəlir: "Əruzdan danışarkən gördüyümüz kimi, ərəb alimləri və xüsusilə də Xəlil ibn Əhməd qafiyə məsələlərinə də dilçilik nöqteyi-nəzərindən yanaşmış və öz əsərlərində ilk növbədə qafiyə nədir sualına cavab vermək istəmişlər. Əksər ərəb alimləri İbn Əbd Rəbbihi, İbn Rəşiq, Xətib Təbrizi, Səkkaki və xüsusilə də Nəsirəddin Tusinin qeydinə əsasən, Xəlil ibn Əhmədə görə, qafiyə beytin sonundakı sakin hərflə, ondan əvvəlki sakin hərf arasındakı hərəkələrin və hərflərin məcmusundan ibarətdir. Əxfəşə görə isə qafiyə beytin axırında gələn sözdür. Digər alimlər isə rəvi hərfini qafiyə adlandırmışlar. Sözsüz ki, qafiyəyə müxtəlif mövqelərdən yanaşdıqda, ona müxtəlif təriflər vermək olar. Amma maraqlıdır ki, əksər alimlər, xüsusilə də Nəsirəddin Tusi Xəlil və onun tərəfdarlarının fikirlərini daha elmi saymış və öz əsərlərində bu fikirlərə daha çox üstünlük vermişlər. XIII əsrdə özünə qədər olan ərəb mənbələrini ümumiləşdirən Nəsirəddin Tusi isə qafiyəyə belə bir tərif verir: "*Qafiyə misraların və ya beytlərin axırlarında oxşar sözlərin bir hərf və ya bir neçə hərfinin birləşməsinin təkrarıdır*" [3, s.90].

Qafiyə nədir sualına cavab tapdıqdan sonra, ərəb filoloqları qafiyənin hüdudları nə həcmdədir, hansı böyüklükdədir sualına da cavab axtarmışlar. Lakin onlar qafiyənin bütövlükdə rolunu şeirdə olduqca yüksək qiymətləndirdiklərindən, bəzən qafiyənin hüdudları sözünü, terminini bütöv şeirə aid edərək, onu şeirin hüdudları kimi də adlandırmışlar. Bu mənada, Sahib bin Əbbad da istisna deyildir. Belə ki, o da digər alimlərin əksər şəkildə "qafiyənin hüdudları" adlandırdıqları bölməni, "şeirin hüdudları" adlandırmışdır. Beləliklə, əksər alimlərə, o cümlədən, Sahib bin Əbbada görə qafiyənin – şeirin hüdudları beşdir: mütəvatir, mütədarik, mütəradif, mütərakib və mütəkavus. Sahib bin Əbbada görə, mütəvatir axırında yanaşı vətədin gəldiyi qafiyə növü, mütədarik axırında yüngül səbəbin gəldiyi qafiyə növü, mütəradif

axırında qoşa sakinin gəldiyi qafiyə növü, mütərakib axırında kiçik fasilənin gəldiyi qafiyə növü və mütəkavus isə axırında böyük fasilənin gəldiyi qafiyə növüdür.

Bu məsələləri tədqiq edən professor Tərlan Quliyev, qafiyə hüdudlarının ərəb qafiyəşünaslarına, əsasən də, Sahib bin Əbbad və Xətib Təbriziyə görə nə olduğunu ümumiləşdirərkən, aşağıdakı maraqlı nəticələrə gəlir ki, araşdırmalarımız üst-üstə düşdükləri üçün biz və onları nümunə gətirməklə kifayətlənirik: "...Ərəb alimləri ərəb qafiyəsinin beş tipi olduğunu göstərirlər. Ərəb qafiyəsini dərindən tədqiq edən bu alimlərə görə, birinci tip dörd hərəkəli bir sakin, ikinci tip üç hərəkəli bir sakin, üçüncü tip iki hərəkəli bir sakin, dördüncü tip bir hərəkəli bir sakin, beşinci tip isə iki sakin hərfin birləşməsindən ibarətdir. Bu tipləri başqa şəkildə də izah edənlər var. Məsələn, Sahib bin Əbbad dörd hərəkəli bir hərəkəsiz qafiyə tipini izah edərkən, onun fasiley-kubraya, üç hərəkəli bir hərəkəsiz qafiyə tipini təyin edərkən, onun fasileyi-suğraya, iki hərəkəli bir hərəkəsiz qafiyə tipini izah edərkən, onun vətədi-məcmuya, bir hərəkəli və bir hərəkəsiz qafiyə tipi haqqında danışarkən isə onun səbəbi-xəfifə uyğun gəldiyini söyləyir. Kim nə şəkildə izah edir etsin, hər iki halda mahiyyət birdir. Əsas məsələ isə odur ki, bütün müxtəlif izahlar bütün məqamlarda Xəlilin qafiyə haqqında tərifinin daha elmi olmasına və Xəlilin yaratdığı səbəb, vətəd ritminin eyni zamanda, qafiyənin də təşkilində mühüm rol oynadığına söykənir: yəni başqa sözlə desək, Xəlilin yaratdığı və əruzun əsasına qoyduğu səbəb, vətəd, fasilə, eyni zamanda, təkcə ərəb şeirinin ritminin deyil, ərəb qafiyəsinin də hüdudları hesab olunur. Və sonrakı səviyyədə, növlər səviyyəsində görəcəyimiz kimi, Xətib Təbrizi və Nəsirəddin Tusinin ərəb şeirinin növlərindən bəhs edərkən göstərdikləri doqquz növün heç biri bu hüdudların səviyyələrini aşmır. Beləliklə, buradan da bir daha ərəb qafiyəşünaslarının bu beş qafiyə tipinə nə üçün "hüdudi-qəvafi" – "qafiyənin hüdudları" adını verdikləri öz-özlüyündə aydın olur" [3, s.92-93].

Professor T.Quliyev daha sonra Xətib Təbrizinin "şeirin hədləri", "hüdudi-şeir" başlığı altında olan fikirlərini təhlil edərkən yazır: " *Xətib Təbrizi isə bu tipləri başqa şəkildə izah edir. Belə ki, ona görə, bizim qeyd etdiyimiz birinci tip iki sakin hərfin arasında gələn dörd hərəkəli hərfin, ikinci tip iki sakin hərf arasında gələn üç hərəkəli hərfin, üçüncü tip iki sakin hərf arasında gələn iki hərəkəli hərfin, dördüqncü tip iki sakin hərfin arasında gələn bir hərəkəli hərfin, beşinci tip isə iki sakin hərfin birləşməsindən ibarətdir. Göründüyü kimi, burada Sahib bin Əbbadın fikirlərinə zidd heç bir şey yoxdur və mahiyyət etibarilə onlar eynidirlər*" [3, s.93].

Beləliklə də, cəmi altı sətir həcmində qafiyə hüdudlarından, şeirin hüdudlarından bəhs edən Sahib bin Əbbad, əsərinin qafiyə hissəsinin sonunda bir daha ərəb qafiyəsini təşkil edən hərf və hərəkələrin adlarını xatırlatmaqla, həm əsərinin qafiyə hissəsinə, həm də bütövlükdə "Əl-İqna fil arud va təxricil qavafi" əsərinə yekun vurur. Maraqlıdır ki, əsərinin qafiyə hissəsinin əvvəlində ərəb qafiyəsini təşkil edən hərflərdən danışarkən, bu hərflər sırasında qısa da olsa dəxlin adını çəkən, beləliklıə də, ərəb qafiyəsini təşkil edən hərflərin altı olduğunu qeyd

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 374-382*

edən Sahib bin Əbbad, əsərinin sonunda dəxlin adını çəkməyərək, ərəb qafiyəsini təşkil edən hərflərin beş olduğunu rəsmi şəkildə elan edir.

Bununla da, qeyd etdiyimiz kimi, Sahib bin Əbbad "Əl-İqna" əsərinin qafiyə hissəsinə yekun vurur. Lakin Sahib bin Əbbad digər əruzçulardan, eyni zamanda, Xətib Təbrizidən fərqli olaraq, qafiyənin bir probleminə, bir məsələsinə öz münasibətini bildirmir. Qafiyə elminin bu tərkib hissəsi "Əl-İqna"da öz əksini tapmır. Bu, Sahib bin Əbbadın da və digər əruzçuların da qeyd etdikləri hərf və hərəkələr vasitəsilə yaranan qafiyənin növləri bəhsidir. Beləliklə, əksər qafiyə alimlərinə, o cümlədən, Xətib Təbriziyə görə, ərəb qafiyəsində doqquz qafiyə növü vardır: "*Qafiyə doqquz cür olur. Onun üçü müqəyyəd və altısı isə mütləqdir. Müqəyyəd birləşməyən, mütləq isə birləşəndir. Müqəyyədin üç növü var: mücərrəd müqəyyəd, ridifli müqəyyəd və təsisli müqəyyəd. Mütləqin altı növü var: mücərrəd mütləq, xüruclu mütləq, ridifli mütləq, ridifli və xüruclu mütləq, təsisli mütləq və nəhayət, təsisli və xüruclu mütləq*" [2,s.141].

Təbii ki, qafiyəni təşkil edən, hərf və hərəkələr vasitəsilə yaranan ərəb qafiyəsinin bu doqquz növü haqqında geniş şəkildə danışmaq, müxtəlif ərəb alimlərinin, o cümlədən, Xətib Təbrizinin fikirlərini şərh etmək olar. Lakin Sahib bin Əbbad öz əsərində ərəb qafiyəsinin bu bəhsinə yer ayırmadığı üçün, biz də ərəb qafiyəsinin bu səviyyəsi haqqında geniş şəkildə danışmır, bu səviyyə ilə maraqlanan mütəxəssislərə müvafiq ədəbiyyata nəzər salmağı tövsiyə edirik.

Beləliklə aydın olur ki, Sahib bin Əbbadın "əl-İqna" əsəri ərəb əruz və qafiyəşünaslıq tarixində dövrümüzə qədər gəlib çatan ilk əsərlərdən olmaqla bərabər, özünəqədərki və özündənsonrakı əruz və qafiyəşünaslıq tarixində körpü rolunu oynayan mənbələrdən biridir. Bu əsər bizə Xəlil ibn Əhmədin əruz haqqında olan əsərinin strukturu, xarakteri haqqında müəyyən təsəvvür əldə etməyə imkan verir. "əl-İqna" əsərinin əruz hissəsinin təhlili göstərir ki, Sahib bin Əbbad əruz və qafiyəşünaslıq tarixində Xəlil ibn Əhmədin ənənələrini davam etdirən alim olmuş, Xəlil ibn Əhmədin əleyhinə çıxan Əxfəş və digər filoloqların nəzəri müddəalarını o qədər də ciddi qəbul etməmişdir.

"Əl-İqna" əsərinin ərəb qafiyəsinin nəzəri əsaslarından bəhs edən hissəsi həcm etibarilə kiçik olsa da, bu elmin bütün əsas tərkib hissələrini özündə ehtiva edir. Sahib bin Əbbad burada ərəb qafiyəsinin hərf və hərəkələr, qafiyənin eyibləri, qafiyənin hüdudları və s. məsələlər haqqında qısa da olsa məlumat verir. Amma, biz Sahib bin Əbbadın "əl-İqna"sında digər əsərlərdəki bir problemi - ərəb qafiyəsinin növləri məsələsini görmürük. Bizcə, bunun səbəbi Sahib bin Əbbadın bu əsəri ancaq yüksək elmi auditoriya üçün yazması ilə əlaqədardır.

Bu əsərin praktik baxımdan da olduqca böyük əhəmiyyəti vardır. Belə ki, onun vasitəsilə əruz və qafiyənin nəzəri əsaslarını öyrənən hər bir kəs çox asanlıqla bu nəzəri bilikləri əruz vəznində və ərəb qafiyəsinin nəzəri çərçivələri əsasında yazıb-yaradan şərq xalqlarının ədəbi nümunələrinə tətbiq edərək, onların sənətkarlıq

xüsusiyyətlərini, başqa sözlə desək, əruzdan və qafiyədən öz yaradıcılıqlarında praktik şəkildə nə dərəcədə bəhrələndiklərini aydınlaşdıra bilər. Bu mənada, Azərbaycan ədəbiyyatı da istisna deyildir. Belə ki, əruz və qafiyənin nəzəri əsaslarını, xüsusilə, Sahib bin Əbbadın "əl-İqna" və bu tipli əsərləri öyrənməklə istər ərəb, istər fars, istərsə də ana dilimizdə əruz vəzninin və ərəb-fars qafiyəsinin imkan verdiyi çərçivələrdə yazıb-yaradan şairlərimizin yaradıcılıqlarını araşdırmaq, onların sənətkarləq dərəcələrini müəyyən etmək mümkündür.

## ƏDƏBİYYAT

1. Əkrəm Cəfər. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu (ərəb, fars, tacik, türk və özbək əruzları ilə müqayisədə). – Bakı: 1977. -413 s.
2. Xətib Təbrizi. Kitab əl-kafi fi-l-əruz və-l-qəvafi / - Bakı: "Tural" NPM, - 2005. - 424 s.
3. Quliyev, T. Əruz və qafiyəşünaslıq tarixi (VIII – XVI əsrlər) / - Bakı: - 1998. - 180 s.
4. Əs-Sahib bin Əbbad. Əl-İqna fil-arud va təxric əl-qavafi. Bağdad: 1960. - 112 s.
5. Muhamməd Həsən Al Yasin. Əl-Muqaddamə. Əs-Sahib bin Əbbad. Əl-İqna fil-arud va təxric əl-qavafi / - Bağdad: 1960. S. ل + ه

**Хатын Сейран кызы Джафарли**

## САХИБ ИБН АББАД "АЛЬ-ИГНА ФИЛ АРУД ВА ТАХРИДЖИЛ КАВАФИ" НЕДОСТАТКИ И ГРАНИЦЫ РИФМЫ
**(Резюме)**

Статья посвящена работе Сахиба ибн Аббада «аль-Икна филь ару два тахриджиль кавафи». Данная работа является одним из ценнейших источников по теоретическим основам арабской рифмы и стихосложения. Хотя раздел «аль-Икна» посвященный теоритическим основам арабской рифмы, невелик по объему, он содержит все основные компоненты этой науки. Сахиб бин Аббад обсуждает здесь буквы и движения арабской рифмы, недостатки рифмы, ограничения рифмы и т.д., предоставляет краткую информацию о проблемах.

Изучение произведения «аль-Икна филь ару два тахриджиль кавафи» Сахиба ибн Аббада, видного общественно-политического деятеле, ученого, писателя и поэта X века, актуально как минимум в двух отношениях: во-первых, изучая это произведение, мы узнаем об одном из первых

сохранившихся до нашего источников, написанных об аруде. Это даёт нам некоторую информацию о разных периодах арабской астрологии, особенно о книге Халиля ибн Ахмада. Во-вторых, мы приобретаем более четкие научные представления о теоретических основах рифмы и рифмовки, получаем возможность оближи познакомиться с произведениями сотен поэтов Востока, написанными в этих жанрах и прояснить их художественно –эстетическую сущность.

**Khatyn Seyran kyzy Jafarli**

## SAHIB IBN ABBAD "AL-IGNAFIL ARUD WA TAHRIJIL KAVAFI" FLAWS AND BOUNDARIES OF RHYME

**(Summary)**

This article is about work of Sahib ibn Abbad "al-Iqna" fil arud wa takhriji gawafi". This work is one of the most valuable sources on the theoretical foundations of Arabic rhyme and rhyme. Although the part of "al-İqna" that deals with the theoretical foundations of Arabic rhyme is small in volume, it contains all the main components of this science. Sahib ibn Abbad here provides brief information on the letters and movements of Arabic rhyme, the flaws or rhyme, the limits of rhyme and etc.

The study of the work of Sahib ibn Abbad, a prominent public and political figure, scientist whiter and poet of the 10 th century, "al-Iqna" fil arud wa takhriji gawafi" is relevant in at least two respects: fist, by studying this work we learn one of the first sources whitten about arud and that have survived to our time. This gives us certain information about the early periods of Arabic arud science in particular, the book of Khalil ibn Ahmad. Second, we acquire clearer scientific ideas about the theoretical foundations of arud and rhyme and we get the opportunity to become more familiar with the works of hundreds of Eastern poets written in these genres and clarity their artistic and aesthetic essence.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Şəfiqə Abdullayeva**